| | |
|---|---|
| Xidmətin adı: | **5. İxrac edilən heyvan, heyvan mənşəli məhsullar, xammal, yem və yem əlavələrinə beynəlxalq baytarlıq sertifikatının verilməsi** |
| Tələb olunan sənədlər: | - ərizə;<br>- ərizəçi fiziki şəxs olduqda -şəxsiyyətini təsdiq edən sənədin surəti;<br>- ərizəçinin vergi ödəyicisi kimi uçota alınması haqqında şəhadətnamənin surəti;<br>- hüquqi şəxsin dövlət reyestrindən çıxarışının surəti;<br>- ərizəçinin nümayəndəsi müraciət etdikdə onun səlahiyyətlərini təsdiq edən sənəd;<br>- damazlıq heyvanlar ixrac edilərkən müvafiq dövlət orqanının rəyi;<br>- dövlət rüsumunun ödənilməsi barədə sənəd; |
| Dövlət rüsumunun məbləği: | 20 manat |
| Tələb olunan müddət: | 7 iş günü |

**Qeyd 1:** Ərizədə və ona əlavə edilmiş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, təqdim edilmiş nümunələrin ekspertizadan keçirilməsi zamanı, icazəni verən dövlət orqanı, zəruri hesab etdikdə konkret fəaliyyət növünün xüsusiyyətlərindən asılı olaraq müvafiq rəy alınması üçün aidiyyəti dövlət orqanlarına müraciət etdikdə, icazə verən dövlət orqanı ekspert və ya mütəxəssisin cəlb olunması ilə bağlı aidiyyəti dövlət orqanına müraciət etdikdə tətbiq olunan müddətlər qeyd olunan müddətə daxil edilmir.

**Qeyd 2:** Dövlət baytarlıq nəzarətində olan yüklərin sertifikatlaşdırılması zamanı onun qüvvədə olan baytarlıq-sanitariya tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədilə daşıdığı risk səviyyəsinə uyğun olaraq ekspertizası aparılır.

**Qeyd 3:** Dövlət baytarlıq nəzarətində olan yüklərin sertifikatlaşdırılması zamanı göstərilən xidmətlərin dəyəri yuxarıda qeyd olunan məbləğə aid deyil.